# Ədəbiyyat qəzeti

www.edebiyyatqezeti.net

20 fevral 2015-ci il. Cümə № 11 (4966) 1934-cü ildən çıxır www.ayb.az Qiyməti 40 qəpik




## Səlim Turan - 100

*1948-lərdə*
*Rəsmi çox sevmişdim*
*Natürmort olacaqdım nerədəysə*
*Londondan gəldiyimdə Parisə*
*Turnedlər və Sisleylərdə*
*Scola Kantorumda bir gecə*
*Mən ki, Matissi də bilirəm, Pikassonu da*
*Məxsus söyləyirəm böylə*
*Səlimi, Şahikayı tanıdım*
*Oh, - dedim o küçük odada*
*Yağlıboya qoxusunu çəkdim burnuma*
*Bir rahib, bir rahibə*
*Heç konuşmadan mənə anlatdılar*
*Mikrokosmos nəymiş*
*makrokosmos nəymiş*
*Yəni mikroskopların göstərdiyi evrən*
*Xəstələnmiş patateslər və*
*"Vin rouge" şüşələriylə*
*Şahika...*
*Odanı bir tüstüyə boğduraraq*
*Qapalı bir oda və də rəsmlər*
*İki insanın bir rəsmdə qovğası*
*Nə qədər də sakindilər*
*Həp sakin*
*Səlim bütün işlər bitdikdən sonra*
*Qaleriləri gəzərdik hər gün*
*Məni də təqdim edərdi rəssam Soulageyə*
*Mən sanki bir gənc məbud*
*Sena sahilində Çiçək Bazarına gedərdik*
*Susar, susar, otururdıq Səlimlə*
*Bir qədər heç konuşmadan anlaşdığım yoxdu*
*Çiçəklər kimi susqun və konuşandıq*
*Rəsm yaşayırdıq birlikdə*
*Məni bütün bunalımlarımla birlikdə*
*Şahikayla və odada təkrar*
*Səlimin yamacına qıvrılır yatardım*
*Mən Səlimi bir səssizliyin,*
*Bir çığlığa dönüşməsi olaraq gördüm*
*Hər tuvalın üstündə xətti bir səthi-müdafiəyə dönüşməsi*
*Bütün Şeyx Bədrəddin dizisi*
*Buna tanıqdır*
*Səlim səlim bir rəssamdı*
*Səlim bir insan bəlkə də fazla*
*O öldü olduysa oldu*
*Amma bu Səlimi Şahika ilə*
*O kiçicik odada Scola Kontorumda*
*Bunca xəbisin kol gəzdiyi bu toplum içində*
*Səlimi səlim bir ur kibi*
*Böyrümdə daşıyacağam*
*Zaman-zaman sızlayan.*

**Can Yücel**